# *Fəxrəddin ZİYA - 70*



Hörmətli Fəxrəddin Ziya!

Sizi - tanınmış şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1953-cü ildə Masallı rayonunun Qodman kəndində anadan olmusunuz. Ali təhsilinizi Azərbaycan Tibb Universitetində alıbsınız.

Yaradıcılığa erkən yaşlarınızdan başlamısınız. Müxtəlif illərdə çap etdirdiyiniz kitablar yaradıcılığınıza geniş oxucu marağına səbəb olub. Mahmud Kaşğari adına beynəlxalq ödüllə mükafatlandırılmısınız. Yaradıcılığınız özünəməxsus poetiksı və mövzu rəngarəngliyilə seçilir. İki hissədən ibarət olan "İstəyimin qolları" adlı kitabınızın birinci hissəsində yaradıcılığınızı incələyən məqalə və resenziyalar, publisistik-bədii düşüncələr və kitablarınız haqqında rəylər, 2-ci hissəsində isə yeni şeirləriniz və "Çanaqqala savaşı" poemanız yer alıb.

Hörmətli Fəxrəddin Ziya!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə can sağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2023-cü il.- 25 noyabr.- № 45.- S. 23.**